**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**
**Lənkəran Dövlət Universiteti**

Təsdiq edirəm
Tədris məsələləri üzrə prorektor v.i.e:
_____ dos. Zaur Məmmədov
"09" 09 2025-ci il

**Fənn sillabusu**

İxtisas: **050101** Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
Fakültə: Filologiya və ibtidai təhsil
Kafedra: Azərbaycan dili və ədəbiyyat

**I.Fənn haqqında məlumat:**

Fənnin adı: Şifahi xalq ədəbiyyatı. Fənn üzrə proqram Azərbaycan Respublikası Təhsil Nazirliyinin 18.04.2025-ci il tarixli 3-29/3-2-200F/2025 saylı əmri ilə təsdiq edilmişdir.
Kodu: İF-B09
Tədris ili: I (2025/2026) I
Tədris yükü: Auditoriya saatı – 45 saat. (30 saat müh., 15 saat sem.)
Tədris forması: Əyani
Tədris dili: Azərbaycan dili
AKTS üzrə kredit: 4 kredit
Auditoriya №:
Saat:III gün 2-3-cü saatlar, IV gün 2-ci saat

**II.Müəllim haqqında məlumat:** ***Qədim İgid oğlu Rufullayev, fil.ü.f. dok., dosent.***
Məsləhət günləri və saatı: II gün saat $9^{00}$-$13^{00}$.
E-mail ünvanı:*qedim73 @ mail.ru*
Kafedranın ünvanı: Lənkəran şəhəri, Əli Məmmədov küçəsi - 40 , 2 saylı tədris korpusu

**III.Tövsiyə olunan dərslik, dərs vəsaiti və metodik vəsaitlər:**

**Əsas ədəbiyyat**

1. Azərbaycan ədəbiyyatı tarixi. VI clddə, I cild Bakı, Elm, 2006
2. A. Nəbiyev. Azərbaycan xalq ədəbiyyatı. I hissə. Bakı, Ozan, 2004
3. A. Nəbiyev. Azərbaycan xalq ədəbiyyatı. II hissə. Bakı, Ozan, 2004
4. V. Vəliyev. Azərbaycan folkloru. Bakı,1975
5. P. Əfəndiyev. Azərbaycan xalq ədəbiyyatı. Bakı, 1980

**Əlavə ədəbiyyat**

6. M.Təhmasib. Azərbaycan xalq dastanları. Bakı, 1972
7. Y. Ağazadə. T. Bayraməlibəyov və folklor. Bakı, 2003

**IV. Prerekvizitlər:** Fənnin tədrisi üçün öncədən başqa fənlərin tədris olunmasına zərurət yoxdur.

**V. Korekvizitlər:** Bu fənnin tədrisi ilə eyni vaxtda başqa fənlərin tədris olunmasına zərurət yoxdur.

**VI. Fənnin təsviri və məqsədi:** Azərbaycan şifahi xalq yaradıcılığı filoloji təhsil istiqamətində əsas fənnlərdən biridir. Bu fənn vasitəsilə tələbələr xalqımızın ən qədim şifahi yaradıcılıq örnəkləri ilə tanış olur, folklorun növ və janrlarını öyrənirlər. Məqsəd şifahi xalq yaradıcılığını öyrənməklə yanaşı onu təbliğ etmək, qorumaq, yaşatmaq və gələcək nəsilə şifahi şəkildə verə bilməkdir. Bu məqsədi həyata keçirməkdən ötrü tələbələr həm nəzəri, həm də folklor təcrübəsi yolu ilə praktik vərdişlərə yiyələnməli, folklor hadisələri barədə sərbəst şəkildə fikir söyləməyi bacarmalıdırlar.

**VII. Davamiyyətə verilən tələblər:** Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı Elmi Şuranın 16 may 2025-cü il tarixli qərarına uyğun olaraq davamiyyət meyarları nəzərə alınmaqla müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə həmin fəndən imtahana buraxılmır, onun həmin fənn üzrə akademik borcu qalır.

**VIII. Qiymətləndirmə:**

Tələbələrin biliyi 100 ballı sistemlə qiymətləndirilir. Bundan 50 balı tələbə semestr ərzində , 50 balı isə imtahanda toplayır. Semestr ərzində toplanan 50 bala aşağıdakılar aiddir: 20 bal seminar və laboratoriya dərslərində fəaliyyətinə, 30 bal kollokviumların nəticələrinə görə. Əgər fənn üzrə həm seminar və həmdə laboratoriya varsa onda 10 bal seminara, 10 bal isə laboratoriyaya görə verilir.

Qiymətləndirmə zamanı Elmi Şuranın 16 may 2025-cü il tarixli qərarına uyğun olaraq qiymətləndirmə meyarları nəzər alınır. İmtahan biletinə, bir qayda olaraq fənn üzrə proqram materialını əhatə edən 5 sual daxil edilir. Hər sual 10 bala qədər qiymətləndirilir.

**Qiymət meyarları aşağıdakılardır:**

-10 bal- tələbə keçilmiş materialı dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir.
- 9 bal-tələbə keçilmiş materialı tam başa düşür, cavabı dəqiqdir və mövzunun mətnini tam aça bilir.
- 8 bal-tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;
- 7 bal- tələbə keçilmiş materialı başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir
- 6 bal- tələbənin cavabı əsasən düzgündür.
- 5 bal-tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir.
- 4 bal- tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;
- 3 bal- tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;
- 1-2 bal- tələbənin mövzudan qismən xəbəri var.
- 0 bal- suala cavab yoxdur.

Tələbənin imtahanda topladığı balın miqdarı 17-dən az olmamalıdır. Əks təqdirdə tələbənin imtahan göstəriciləri semester ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala əlavə olunmur. Semestr nəticəsinə görə yekun qiymətləndirmə (imtahan və imtahanaqədərki ballar əsasında)

| № | Bal | Qiymət | |
|---|---|---|---|
| | | Sözlə | Hərflə |
| 1. | 91-100 | əla | A |
| 2. | 81-90 | çox yaxşı | B |
| 3. | 71-80 | yaxşı | C |
| 4. | 61-70 | kafi | D |
| 5. | 51-60 | qənaətbəxş | E |
| 6. | 50 və ondan aşağı | qeyri-kafi | F |

**IX. Davranış qaydalarının pozulması:**Tələbə Universitetin daxili nizam –intizam qaydalarını pozduqda onun haqqında əsasnamədə nəzərdə tutulan qaydada tədbir görüləcək.

**X. Təqvim mövzu planı:** *Mühazirə 30 saat , seminar 15 saat. Cəmi: 45 saat*

| № | Keçirilən mühazirə məşğələlərinin məzmunu | Saat | Tarix |
|---|---|---|---|
| | **I kollokvium mövzuları** | | |
| 1. | **Mövzu: Xalq ədəbiyyatı haqqında ümumi məlumat**<br>**Plan:**<br>1. Folklor və folklorşünaslıq<br>2. Sivil mədəniyyətə doğru tarixi inkişaf yolları<br>3. Folklorun başlıca xüsusiyyətləri<br>4. Folklorun başqa elm sahələri ilə əlaqəsi<br>5.Folklor irsi dünya tədqiqatında<br>**Mənbə: 1,2,3,4,5** | 2 | |
| 2. | **Mövzu: Avropada folklorşünaslığın yaranması və inkişafı**<br>**Plan:**<br>1. Folklorşünaslıq bir elm kimi<br>2.Mifoloji nəzəriyyə<br>3.T.Benfeyin İqtibas nəzəriyyəsi<br>4.Fin məktəbi, Antropoloji və Tarixi nəzəriyyə<br>**Mənbə: 1,2,3,4,5,7** | 2 | |
| 3. | **Mövzu: Azərbaycan folklorşünaslığı**<br>**Plan:**<br>1.Azərbaycan xalq ədəbiyyatının yazıya alınma mərhələləri<br>2. Azərbaycan ağız ədəbiyyatının yazıya alınmasının **birinci** dövrü (1820-1900-cü illər).<br>3. Milli folklorşünaslığın yaranma və formalaşma mərhələsi (1900-1940-cı illər).<br>4. 40-60-cı illərdə Azərbaycan folklorşünaslığı. (H.Araslı, M.H.Təhmasib) | 2 | |

| | | | |
|---|---|---|---|
| | 5. 1970-2000-ci illər folklorşünaslığın yeni yüksəliş dövrü kimi.<br>**6.** T.Bayraməlibəyov və folklor<br>7.H.Zeynallı, V.Xuluflu, Ə.Abid, S.Mümtazın folklorşünaslıq məktəbi<br>**Mənbə: 1,2,3,4,5,7** | | |
| **4.** | **Mövzu: Qədim dövr xalq ədəbiyyatı.**<br>**Plan:**<br>1 Azərbaycan mifologiyası<br>2. Azərb.mifologiyasının inkişaf modeli və təsnifi<br>3. Avesta inkişaf modeli və intizamı<br>**Mənbə: 1,2,3,4,5** | **2** | |
| **5.** | **Mövzu: Şifahi yaradıcılığın erkən qaynaqları**<br>**Plan:**<br>1.Əmək nəğmələri a) Əkinçi nəğmələri (holavarlar) b) Sayaçı nəğmələri c) Sağın nəğmələri d) Ovçu nəğmələri e) Balıqçı nəğmələri z) İpəkçi və hana nəğmələri<br>2. Bayatılar<br>3. Mahnılar<br>**Mənbə: 1,2,3,4,5** | | |
| **6.** | **Mövzu:** Mərasim folkloru<br>**Plan:**<br>1.Mövsüm mərasim nəğmələri: a) Ayrı-ayrı təbiət hadisələri və etiqadlarla bağlı yaranan nəğmələr b) İlin müəyyən fəsillərində xalqın birgə əməyini yekunlsşdıran nəğmələr c) İlaxır çərşənbələr. Novruz<br>2. Məişət mərasim nəğmələri a) Toy nəğmələri b) Ağılar<br>**Mənbə: 1,2,3,4,5** | **2** | |
| | **II kollokvium mövzuları** | | |
| **7.** | **Mövzu:** Mərasim folkloru ilə bağlı yaranan kiçik janrlar<br>**Plan:**<br>1.Atalar sözü və məsəllər<br>2.İnanclar<br>3.Andlar<br>4.Alqış və qarğışlar<br>5.Əfsunlar və fallar<br>**Mənbə: 1,2,3,4,5** | **2** | |
| **8.** | **Mövzu:** Oyunlar, meydan tamaşaları və xalq dramları<br>**Plan:**<br>1.Oyunların təsnifi: məişət və mərasim oyunları<br>2.Meydan tamaşalarıa) Cıdır tamaşaları, b) Zorxana tamaşaları, c) Əyləncə tamaşaları, d) Kəndirbaz tamaşaları, e) Fərdi tamaşalar<br>3. Xalq dramları a) Faciəvi dramlar, b) Komik dramlar, c) Ailə-məişət dramları d) İctimai məzmunlu dramlar, e) Dini dramlar (Şəbihlər)<br>**Mənbə: 1,2,3,4,5** | **2** | |
| **9.** | **Mövzu:** Qədim türk dastanaları, "Kitabi Dədə Qorqud" eposu<br>**Plan:**<br>1. Qədim türk dastanları barədə qısa məlumat<br>2. "Kitabi-Dədə Qorqud"un tədqiqi<br>3. "Kitabi-Dədə Qorqud"un məzmunu və təhlili<br>4.Eposun bədii xüsusiyyətləri<br>**Mənbə: 1,2,3,4,5,6** | **2** | |

| | | | |
|---|---|---|---|
| 10. | **Mövzu:** Azərbaycan uşaq folkloru<br>**Plan:**<br>1.Uşaq folklorunun tədqiqi tarixi<br>2.Uşaq folklorunun janrları a) oxşamalar b) arzulamalar, c) sanamalar d) laylalar e) nəğmələr f) tapmacalar g) nağıllar k) oyunlar<br>**Mənbə: 1,2,3,4,5** | 2 | |
| 11. | **Mövzu: Azərbaycan** aşıq yaradıcılığı<br>**Plan:** 1.Aşıq poeziyasnın erkən qaynaqları<br>2.Aşıq sənəti və onun əsas xüsusiyyətləri<br>3. Ustad aşıqları və aşıq şeirinin şəkilləri<br>4.Aşıq məktəbləri (Anadolu, Şirvan, Təbriz, Göyçə)<br>**Mənbə: 1,2,3,4,5,6** | 2 | |
| 12. | **Mövzu:** Azərbaycan xalq nəsri<br>**Plan:**<br>1. Xalq nəsrinin mənşəyi<br>2. Miflər və əfsanələr<br>3. Rəvayətlər 4.<br>Lətifələr<br>**Mənbə: 1,2,3,4,5,7** | 2 | |
| 13. | **Mövzu:** Azərbaycan xalq nağılları və onun əsas səciyyəsi<br>**Plan:**<br>1.Nağılların əsas səciyyəsi.<br>2. Nağılların əsas mövzusu<br>3. Nağılların növləri<br>**Mənbə: 1,2,3,4,5,7** | 2 | |
| 14. | **Mövzu:** Məhəbbət dastanları<br>**Plan:**<br>1.Dastanların təsnifi<br>2.Məhəbbət dastanlarının quruluşu və əsas cəhətləri<br>3.Məhəbbət dastanlarının növləri<br>4.Aşıq-məşuq dastanalrı<br>5.Butalanma yolu ilə yaranan dastanlar<br>6. Ənənəvi süjetlər əsasında yaranan dastanalar<br>**Mənbə: 1,2,3,4,5,6** | 2 | |
| 15. | **Mövzu:** Qəhrəmanlıq dastanları və onun əsas xüsusiyyətləri.<br>**Plan:**<br>1. "Koroğlu" dastanının versiya və variantları<br>2. "Koroğlu" dastanı və onun tədqiqi tarixi<br>3. Xanlıqlar dövrü xalq ədəbiyyatı<br>4. Qaçaq nəğmə və dastanlarının yaranması<br>5. Şəhər folklor yaradıcılığı<br>6. Sovet dövrü folklor yaradıcılığı<br>**Mənbə: 1,2,3,4,5** | 2 | |

| № | Keçirilən seminar məşğələlərinin məzmunu | Saat | Tarix |
|---|---|---|---|
| 1. | Folklor nəzəri irsi və Azərbaycan xalq ədəbiyyatı. Azərbaycan folklorşünaslıq məktəbi | 2 | |
| 2. | Qədim dövr xalq ədəbiyyatı. Ağız ədəbiyyatında ədəbi növlər və lirik növün erkən şəkilləri | 2 | |
| 3. | Mərasim folkloru. Mərasim folkloru ilə bağlı yaranan kiçik janrlar | 2 | |
| 4. | Oyunlar, meydan tamaşaları və xalq dramları | 2 | |
| 5. | Qədim türk dastanaları. "Kitabi Dədə Qorqud" eposu | 2 | |
| 6. | Azərbaycan uşaq folkloru. Poetik ifadənin yeni qolibləri və yeddi hecalı şeirin yaranması | 2 | |
| 7. | Aşıq yaradıcılığının başlıca xüsusiyyətləri. Ustad aşıqlar. Aşıq şeirinin şəkilləri | 2 | |

| 8. | Azərbaycan xalq nəsri. Dastanlar | 1 | |
|---|---|---|---|

**XI.Fənn üzrə tələblər, tapşırıqlar:** Tələbələr Azərbaycan şifahi xalq yaradıcılığı kursunu həm nəzəri, həm də praktik cəhətdən mənimsəyərək, lazımı vərdişlərə yiyələnməli, folklorşunaslıq hadisələrindən sərbəst baş çıxaemağı bacarmalı, folklor süjetlərini, nəzəri məsələləri təhlil etməyi, aydınlaşdırmağı bacarmalıdır.

**XII. Fənn üzrə təlimin nəticələri:**

1. Tələbələr bu fənn vasitəsilə xalqımızın ən qədim şifahi yaradıcılıq örnəkləri ilə tanış olur;
2. Folklorun növ və janrlarını öyrənir.
3. Şifahi xalq yaradıcılığını öyrənməklə yanaşı onu təbliğ etmək, qorumaq, yaşatmaq və gələcək nəsilə şifahi şəkildə verə bilir.
4. Tələbələr həm nəzəri, həm də folklor təcrübəsi yolu ilə praktik vərdişlərə yiyələnir, folklor hadisələri barədə sərbəst şəkildə fikir söyləməyi bacarırlar.

**XIII. Tələbələrin fənn haqqında fikrinin öyrənilməsi:**

**XIV: Kollokvium sualları:**

**I Kollokvium sualları**

1. Folklor və folklorşünaslıq. Mifoloji nəzəriyyə
2. Folklorun başlıca xüsusiyyətləri
3. Azərbaycan folklorşünaslığı.
4. Azərbaycan xalq ədəbiyyatının yazıya alınma mərhələləri
5. Mif və mifologiya. Oğuz Xaqan dastanı
6. Avesta və onun hissələri
7. Folklorun başqa elm sahələri ilə əlaqəsi
8. Mövsüm mərasim folkloru
9. Məişət mərasim nəğmələri
10. Mərasim folklor ilə bağlı yaranan kiçik janrlar (Atalar sözü və məsəllər, inanclar, andlar və s.)

**II Kollokvium sualları**

1. Oyunların təsnifi: məişət və mərasim oyunları
2. "Kitabi Dədə Qorqud" eposu və onun tədqiqi
3. Azərbaycan uşaq folkloru
4. Bayatı, xalq mahnıları
5. Aşıq yaradıcılığının başlıca xüsusiyyətləri
6. Aşıq məktəbləri (Anadolu, Şirvan, Təbriz, Göyçə)
7. Ustadnamə və vücudnamələr
8. Azərbaycan xalq nəsri: miflər və əfsanələr
9. Nağıllar
10. Dastanların təsnifi

**XIII.İmtahan sualları:**

1. Folklor və folklorşünaslıq.
2. Folklorun başlıca xüsusiyyətləri
3. Folklorun başqa elm sahələri ilə əlaqəsi
4. Folklorşünaslıq bir elm kimi
5. Avropada folklorşünaslığın yaranması və inkişafı
6. Mifoloji nəzəriyyə
7. T.Benfeyin İqtibas nəzəriyyəsi
8. Fin, Antropoloji və Tarixi məktəb nəzəriyyəsi
9. Azərbaycan folklorşünaslığı
10. Azərbaycan xalq ədəbiyyatının yazıya alınma mərhələləri
11. Sovet folklorşünaslıq məktəbi
12. Müstəqillik dövründə folklorşünaslıq
13. Qədim dövr xalq ədəbiyyatı
14. Şifahi yaradıcılığımızın erkən qaynaqları,animizm,totemizm, antropomorfizm.
15. Azərbaycan mifologiyası
16. Ağız ədəbiyyatında ədəbi növlər və lirik növün erkən şəkilləri

17. Əmək nəğmələri: əkinçi nəğmələri (holavarlar)
18. Sayaçı, ovçu, hana və sağın nəğmələri
19. Mərasim folkloru. Mövsüm mərasim nəğmələri
20. İlaxır çərşənbələr. Novruz
21. Məişət mərasim nəğmələri: Toy nəğmələri və ağılar
22. Atalar sözü və məsəllər
23. İnanclar və andlar
24. Alqış və qarğışlar
25. Əfsun və fallar
26. Oyunların təsnifi: məişət və mərasim oyunları
27. Meydan tamaşaları
28. Xalq dramları
29. Əyləncə və kəndirbaz tamaşaları
30. "Kitabi Dədə Qorqud" eposu və onun tədqiqi
31. "Kitabi-Dədə Qorqud"un məzmunu və təhlili
32. "Kitabi-Dədə Qorqud" eposunun bədii xüsusiyyətləri
33. Azərbaycan uşaq folkloru
34. Uşaq folklorunun janrları: oxşama və arzulamalar
35. Sanama və laylalar
36. Nəğmələr
37. Tapmacalar
38. Uşaq nağılları
39. Uşaq oyunları
40. Poetik ifadənin yeni qəlibləri və yeddi hecalı şeirin yaranması
41. Bayatı, xalq mahnıları
42. Aşıq poeziyasnın erkən qaynaqları.Ozan və aşıq repertuarları
43. Aşıq yaradıcılığının başlıca xüsusiyyətləri
44. Ustad aşıqlar və aşıq şeirinin şəkilləri
45. Aşıq məktəbləri (Anadolu, Şirvan, Təbriz, Göyçə)
46. Aşıq Qurbani
47. Aşıq Ələsgər
48. Ustadnamə və vücudnamələr
49. Azərbaycan xalq nəsri: miflər və əfsanələr
50. Rəvayət və lətifələr
51. Nağıllar
52. Dastanların təsnifi
53. Məhəbbət dastanları
54. Qəhrəmanlıq dastanları və onun əsas xüsusiyyətləri
55. "Koroğlu" dastanı və yeni dövr folklor yaradıcılığı

"Şifahi xalq ədəbiyyatı" fənninin sillabusu Azərbaycan dili və ədəbiyyatı müəllimliyi ixtisası (proqramı) üzrə tədris planı və fənn proqramı əsasında tərtib edilmişdir. "Azərbaycan dili və ədəbiyyat" kafedrasının 9 sentyabr 2025-ci il tarixli iclasında təsdiq olunmuşdur (Protokol № 1 ).

Fənn müəllimi: dos. Q.İ.Rufullayev

Kafedra müdiri: dos. Q.İ.Rufullayev

Tanış oldum: dos. E.İ. Mirzəyev